Cekob F.Fild

# DÜNYANIN QISA TARİXİ:



# 50 MARAQLI MƏKAN

İngiliscədən tərcümə:
Rauf Qaraişıq

qanun nəşriyyatı

# A SHORT HISTORY *of the* WORLD *in*



# 50 PLACES

Dr Jacob F. Field

Müəllif bəşər tarixinin böyük dönüş nöqtəsi sayılan hadisələri 50 əlamətdar məkan vasitəsi ilə təqdim edir. Qədim Mesopotamiyadan tutmuş Xirosimaya, Qüdsdən Berlin divarına qədər hər bir yer tarixin bir fəslinə çevrilir. Kitab sadəcə faktları ard-arda sıralamır, əksinə, oxucunu bu yerlərin sosial, siyasi və mədəni aləminə səyahətə və düşünməyə dəvət edir. Bu kitab həm tələbələr, həm turizm və tarix sevərlər, həm də qlobal prosesləri daha dərindən anlamaq istəyənlər üçün ideal qaynaqdır.

# MÜNDƏRİCAT

Giriş ..................................................................7

1. Tarixdən əvvəlki tarix..........................................9
2. Erkən qədim dünya ..............................................21
3. Sonrakı qədim dünya ...........................................46
4. Erkən orta əsrlər dünyası.....................................87
5. Sonrakı orta əsrlər dünyası ................................119
6. Erkən müasir dövr ..............................................158
7. İnqilablar dövrü ..................................................190
8. Müasir dünya .....................................................234

NƏTİCƏ ...............................................................287
TƏŞƏKKÜRLƏR ..................................................288
BİBLİOQRAFİYA.................................................289
İNDEKS ...............................................................291

# GİRİŞ

Bəşər tarixi boyu müəyyən yerlərdə yeni mərhələnin başlamasına səbəb olan hadisələr baş verib, həmin yerlər təkrar-təkrar hadisələrin mərkəzinə çevrilib və ya faciələrin şahidi olub. Digər məkanlar, bəlkə də, ilk baxışda çox məşhur deyil, lakin mikrokosmosun uzunmüddətli tarixi tendensiyasını və ya verilən mövzunu daha əhatəli anlamaq üçün lazım olan detallardır. Bunu elm, iqtisadiyyat, din, incəsənət və cəmiyyətdəki dəyişikliklərə və inkişafa da şamil etmək olar.

***"Dünyanın qısa tarixi: 50 maraqlı məkan" kitabına*** bütün bu cür yerlər və daha çoxu daxil edilib və onlar vasitəsilə bəşəriyyətin ən erkən çağlarından başlayaraq, iyirmi birinci əsrə qədər olan dövrünə yeni baxış təqdim edir.

Xronoloji ardıcıllıqla yazılmış bu kitabda tariximizi müəyyən edən həmin əlli yerin təsiri, mirası və rolu detallı şəkildə işıqlandırılıb. Kitab Afrikada və Tanzaniyadakı Olduvay dərəsində ilk insanların meydana gəlməsi ilə başlayır. Burada ən qədim əcdadlarımızın bəziləri sadə alətlər düzəldib, onlardan istifadə etməklə bütün dünyaya yayılaraq Avstraliyadan tutmuş Amerikaya qədər planetimizin hər bir qitəsində iz qoymuşdular. Kitab daha sonra erkən qədim dünyaya və Bərəkətli Aypara, Nil vadisi və Sarı çay hövzəsində ilk sivilizasiyaların yaranışı dövrünə

gedib çıxır. Üçüncü fəsil sonrakı antik dünyadan, Yerusəlimdəki üç dünya dininin üçünün də müqəddəs yerinə çevrilmiş Məbəd dağı və yunan Qızıl dövrünün şərəfini göylərə qaldıran Afina Akropolisi kimi yerlərdən bəhs edir. Bunun ardınca, dördüncü və beşinci fəsillərdə orta əsrlər – islam dünyasının ən möhtəşəm təhsil mərkəzlərindən biri olmuş Timbuktu universitetindən başlamış İpək yolundakı başlıca dayanacaq olan, müasir Özbəkistanın Səmərqənd şəhərinə qədər; Meksikadakı Aztek imperiyasının möhtəşəm mərkəzi olmuş Tenoçtitlandan (Tenochtitlan) tutmuş ta dünyanın strateji baxımdan ən mühüm dəniz yollarından olan Türk boğazlarına qədər – ətraflı şəkildə izah olunur. Altıncı fəsil erkən modern dövrə keçir; Portuqaliyanın və başqa Avropa xalqlarının əsrlərlə davam edən imperiya quruculuğu prosesindən danışan Belem ibadətgahı və Atlantik okeanı üzərindən keçən qul ticarətinin mərkəzinə çevrilən Qanadakı Keyp Sahil Qalası (Cape Coast Castle) kimi yerlərdən söz açılır. Müasir dünyanın təməlində duran inqilabi hadisələr silsiləsi yeddinci fəsildə detallı şəkildə açıqlanır, burada həm fabrik tipli mexanikləşdirilmiş sənaye obyektlərinin "ilk qaranquşu" olan şotland kəndi Nyu-Lanarkdan, həm də müstəqil Latın Amerikasının gələcək həyatının başlandığı yer – Venesueladakı Simon Bolivar və silahdaşlarının toplaşdığı evdən danışılır. Son olaraq, səkkizinci fəsildə modern dövrdən, çağdaş media dünyasının əsasını qoymuş Hollivuddan başlamış, bir vaxtlar dünyanı nüvə fəlakəti ilə yox olmaq təhlükəsinin bir addımlığına gətirib çıxarmış, Soyuq müharibə qarşıdurmasının sağ qalan abidəsi olan Koreya Demilitarizasiya Zonasına qədər olan məsələlərdən bəhs edilir.

Maraq dairənizin hansı yerləri və zamanları əhatə etməsindən asılı olmayaraq, "***Dünyanın qısa tarixi: 50 maraqlı məkan***" sizə keçmişə aid yeni fikirlər və yeni yanaşmalar bəxş edəcək.

# 1
# TARİXDƏN ƏVVƏLKİ TARİX

## OLDUVAY DƏRƏSİ

Təxminən 2 milyon il əvvəl ilk insanlar Böyük Səhradan cənubdakı Afrikada meydana çıxmışdı. Onlar *Homo habilis*[1] kimi təsnif edilir. Minilliklər ərzində onlar bütün dünyada yayılaraq məskunlaşan müasir insanlara, *Homo sapiensə*[2] çevrildilər. Uzaq əcdadlarımız haqqında əldə olunan məlumat Tanzaniyadakı Olduvay dərəsində edilmiş bir sıra kəşflər sayəsində mümkün olub.

Serengeti düzənliyinin şərq kənarında yerləşən Olduvay dərəsi uzunluğu təxminən 48 kilometr (30 mil) olan sıldırımlı yarğandır. Adı yerli Masay xalqının dilində "vəhşi sisalın yeri" (sisal – o torpaqlarda yayılmış tikanlı bitki) mənasını verən *Oldupay* sözündən gəlir. Bu yer tarixdən əvvəlki dövrlərdə gölə yaxın idi, yəni

[1] Bacarıqlı insan
[2] Müdrik insan

heyvanlar və ilk insanların yığışdığı mühüm bir yer idi. Yaxınlıqdakı vulkanlardan tökülən küllə örtüldüyündən onların qalıqları yaxşı qorunub saxlanıb.

**BÖYÜK RİFT VADİSİ**

Təxminən 6400 kilometr (4000 mil) uzunluğunda olan Şərqi Afrika Rifti Türkiyənin ən cənub ucundan Mozambikdəki Zambezi çayının mənbəyinə qədər uzanır. 0,30 milyon il əvvəl Yer qabığının parçalanması nəticəsində yaranmağa başlayıb, eyni zamanda, eni 80 kilometr (50 mil) və dərinliyi 309 metr (1000 fut) olan vadilər, həmçinin çoxsaylı dağ silsilələri və göllər əmələ gəlib. Məhz bu cür müxtəlifliklərlə zəngin olan bir mühitdə meymunlar müasir insana çevrilib və o ərazini dünyanın daşlaşmış sümüklərlə ən zəngin yerlərindən birinə döndərib.

1911-ci ildə alim Vilhelm Kattvinkel (1866–1935) dərədə daşlaşmış qalıqların yatağını (o cümlədən də indi nəsli kəsilmiş qədim at növü *Hipparionun* dişlərini) tapdı. Sonralar həmin yer almanlara məxsus olan Şərqi Afrika ərazilərinə daxil edildi. O, Berlində bu tapıntıların təqdimatını keçirdikdən sonra qərara alındı ki, oraya geoloq və paleontoloq Hans Rekin (1886–1937) başçılıq etdiyi rəsmi tədqiqat ekspedisiyası göndərilsin. O vaxtlar təkamül nəzəriyyəsi təşəkkül tapmış və insanların primatlardan əmələ gəlməsi geniş şəkildə qəbul edilmişdi. Təkamül prosesini sübut etməli olan daşlaşmış qalıqlar haqda aparılan qeydlərdə natamamlıq var idi və bu boşluqlar prosesin necə və harada baş verdiyini anlamaq üçün böyük çətinliklər yaradırdı. O dövrdə aşkar edilmiş ən qədim hominid qalıqları Asiyada tapılmış *Homo*